TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
E.M.Ağayev
27 fevral 2024-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

Dərman vasitəsini istifadə etməzdən əvvəl içlik vərəqəni diqqətlə oxuyun.
İçlik vərəqəni saxlayın, belə ki, o, Sizə yenidən lazım ola bilər.
Daha geniş məlumatı həkimdən və ya əczaçıdan almaq mümkündür.
Ehtiyac olduqda, həkim və ya əczaçı ilə məsləhətləşin.

**SOLİDAQOREN** oral damcı
SOLIDAGOREN

**Tərkibi**
*Təsiredici maddə:* 10 ml (= 9,5 q) məhlulun tərkibində 7,9 ml qızılsəbət otunun (*Solidaginis herba*), qazayağı otunun (*Anserinae herba*), qatırquyruğu otunun (*Equiseti herba*) duru ekstraktının (1:1,5-2,1) qarışığı (4,2 : 1,4 : 1) vardır.
Ekstragent: etanol 50% (həcm/həcm).
*Köməkçi maddələr:* təmizlənmiş su, etanol 96%.

**Təsviri**
Qəhvəyi rəngli, şəffaf mayedir.

**Farmakoterapevtik qrupu**
Urologiyada istifadə edilən vasitə.
**ATC kodu:** G04BP.

**İstifadəsinə göstərişlər**
Preparat ənənəvi olaraq, sidik yollarını təmizləmək və böyrək daşlarının çökməsini azaltmaq və sidik yollarının iltihabı kontekstində yüngül şikayətlər olduqda, dəstəkləyici müalicə qismində istifadə edilir.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq.
Solidaqoren preparatını, Mürəkkəbçiçəklilər (*Asteraceae*) fəsiləsindən olan bitkilərə qarşı allergiya olduqda, istifadə etmək olmaz, belə ki, adı gedən fəsilənin bitkiləri preparatın tərkibində daxil olan bitki ekstraktının istehsalı zamanı istifadə edilir.
Solidaqoren preparatının tərkibində qatırquyruğu (*Equisetum arvense*) ekstraktı olduğu üçün dərman vasitəsini hamiləlik dövründə istifadəsi əks göstərişdir.
Ağır ürək çatışmazlığı, böyrək çatışmazlığı və digər mayenin qəbulunun azaldılmasını tələb edən xəstəliklər.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Ürək çatışmazlığı və ya böyrək çatışmazlığı ilə törədilən ödemlərin diuretik terapiyasında preparatı istifadə etmək olmaz. Bunu, xüsusilə yaşlı şəxslərdə istifadəsi zamanı nəzərə almaq lazımdır.

Sidikdə qan olduqda, sidiyəgetmədə çətinlik yarandıqda, bədən temperaturu yüksək olduqda və ya simptomların 5 gündən artıq saxlandığı zaman həkimə müraciət etmək məsləhət görülür.
Preparatın tərkibində 45% həcm/həcm spirt vardır. Məsləhət görülən dozaya əməl edildikdə, hər 30 damcının qəbulu zamanı orqanizmə 0,6 q alkoqol daxil olur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələrilə qarşılıqlı təsiri məlum deyil.
Preparatın tərkibində alkoqol olduğu üçün o, digər preparatların təsirini dəyişə bilər.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Solidaqoren preparatının tərkibində qatırquyruğu (*Equisetum arvense*) ekstraktı olduğu üçün hamiləlik dövründə dərman vasitəsinin istifadəsi əks göstərişdir.
Laktasiya dövründə Solidaqoren preparatının istifadəsi, yalnız ana üçün fayda/körpəyə olan risk nisbəti ciddi qiymətləndirildikdən sonra mümkündür.

**Pediatriyada istifadəsi**
Preparat 12 yaşa qədər uşaqlarda istifadə üçün nəzərdə tutulmayıb.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Məsləhət görülən dozaya əməl etdikdə, təsir etmir.

**İstifadə qaydası və dozası**
Böyüklər və 12 yaşdan yuxarı uşaqlar
Preparat gündə 3 dəfə 20-30 damcı təyin edilir. 30 damcı 1,4 ml-ə müvafiqdir.
Solidaqoreni kifayət qədər maye ilə qəbul etmək lazımdır.
İstifadə müddəti həkim tərəfindən fərdi təyin edilir.

**Əlavə təsirləri**
*Çox nadir hallarda:* hiperhəssaslıq reaksiyaları və allergik reaksiyalar.
*Tezliyi məlum deyil:* mədə-bağırsaq sistemi tərəfindən baş verən yüngül pozulmalar.
Allergik reaksiyaların (məsələn, səpgi) ilk əlamətləri təzahür etdikdə, preparatın istifadəsini dayandırmaq lazımdır. Təlimatda qeyd edilməyən əlavə təsirlər baş verdikdə, həkimə müraciət etmək lazımdır.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması zamanı əlavə təsirlərin şiddətlənməsi mümkündür.

**Buraxılış forması**
Oral damcı.
20 ml, 50 ml və ya 100 ml məhlul, damcısalan olan və fırlanan plastmas qapaqlı flakonda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, orijinal qutusunda, işıqdan qorunan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.
Flakon açıldıqdan sonra yararlılıq müddəti 3 aydır.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Dr. Gustav Klein GmbH & Co. KG.
Ştaynenfeld 3, 77736 Sell am Xarmersbax, Almaniya.
Steinenfeld 3, 77736 Zell am Harmersbach, Germany.

**Qeydiyyat vəsiqəsinin sahibi**
Alpen Pharma GmbH.
Ştaynenfeld 3, 77736 Sell am Xarmersbax, Almaniya.
Steinenfeld 3, 77736 Zell am Harmersbach, Germany
Tel.: + 49 (0) 7243 200 49 10.
Mail: ra.germany@alpenpharma.com